**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Emin Quliyevin 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar bələdiyyə üzvlüyünə namizəd Abdullayev Məmmədəli Fətiş oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 122 saylı müraciətinin araşdırılmasına dair**

# R Ə Y İ

Bakı şəhəri 9 yanvar 2010-cu il, saat 16.00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Şəhriyar bələdiyyəsinin üzvlüyünə namizədlər Abdullayev Məmmədəli Fətiş oğlu, Bağırov Şahbala Nuhbala oğlu, Babayev Nazim Nüsrət oğlu 26 dekabr 2009-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək 64 saylı Sabirabad ikinci seçki dairəsinin Şəhriyar bələdiyyəsini əhatə edən seçki məntəqələrində səsvermə zamanı bir sıra qanun pozuntularına yol verildiyi, habelə kənd icra nümayəndəsinin və rayonun baş həkiminin səsvermə prosesinə müdaxilə etdiklərini bildirərək, qanuna müvafiq olaraq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında Mərkəzi Seçki Komissiyası qarşısında qaldırılan vəsatət əsasında Mərkəzi Seçki Komissiyası araşdırmanın uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma zamanı Şəhriyar bələdiyyəsinə seçkilər prosesində bir sıra qanun pozuntularına yol verilməsinə dair iddialar qismən öz təsdiqini tapmışdır. Həmçinin maraqlı şəxslər tərəfindən təqdim edilmiş 1 saylı Şəhriyar-Axtaçı seçki məntəqəsində səsvermənin yekunları haqqında məntəqə seçki komissiyasının protokolu ilə həmin seçki məntəqəsi üzrə səsvermənin yekunları haqqında rəsmi protokol arasında müqayisələrin aparılması zamanı seçicilərin iradəsini müəyyən etməyi imkan verməyən uyğunsuzluqlar aşkar edilmişdir. Bu səbəbdən də müvafiq seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız sayılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2.1-ci maddəsinə uyğun olaraq bələdiyyə üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin bələdiyyənin ərazisində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində seçicilərin sayı bələdiyyə üzrə qeydə alınmış seçicilərin ümumi sayını ¼ - dən çoxunu təşkil etsin, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası müvafiq bələdiyyə üzrə seçkiləri etibarsız sayır.

Beləliklə, 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Şəhriyar bələdiyyəsinə seçkilərin iki seçki məntəqəsi üzrə keçirildiyini və yol verilmiş qanun pozuntuları səbəbindən onlardan biri üzrə səsvermənin nəticələrinin ləğv edilməli olduğunu, həmin seçki məntəqəsində seçicilərin sayının bələdiyyə üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etdiyini nəzərə alaraq və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2.1-ci maddəsinin tələblərini rəhbər tutaraq, hesab olunur ki, 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Şəhriyar bələdiyyəsinə seçkilərin nəticələri etibarsız sayılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinin tələbinə görə aşağı seçki komissiyası tərəfindən vətəndaşların seçki və referendumda iştirak etmək hüquqları pozulduqda və belə bir hal nəticəsində Mərkəzi Seçki Komissiyası müvafiq ərazidə səsvermənin nəticələrini etibarsız hesab etdikdə, Mərkəzi Seçki Komissiyası həmin aşağı seçki komissiyasını buraxa bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş Abdullayev Məmmədəli Fətiş oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 122 saylı müraciəti təmin edilərək, 64 saylı Sabirabad ikinci seçki dairəsinin 1 saylı Şəhriyar-Axtaçı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız sayılsın.
2. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2.1-ci maddəsinin tələblərinə uyğun olaraq 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Şəhriyar bələdiyyəsi üzrə seçkilər etibarsız sayılsın.
3. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinə əsasən 64 saylı Sabirabad ikinci seçki dairəsinin 1 saylı Şəhriyar-Axtaçı seçki məntəqəsinin məntəqə seçki komissiyası buraxılsın.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü Emin Quliyev